# BİBLİOQRAFİYANIN QANUNLARI VƏ QANUNAUYĞUNLUQLARI

***Solmaz SADIQOVA***
*BDU, Bakı, Azərbaycan*
*solmaz_bdu@mail.ru*

***Законы и закономерностибиблиографии***
***Резюме:*** *В статье рассказывается о законах и закономерностях библиографии, которая является одной из самых важных проблем библиографоведения. Отмечается, что совокупность законов служит как средство выражения значения объекта знания. Объясняется межотраслевые законы и закономерности, которые в силе в системе документных коммуникаций.*
***Laws and conformities to law of bibliography***
***Abstract:*** *In article is told about laws and conformities to law of bibliography which is one of the most important problems of bibliography science. It is marked that totality of laws serves as means of expression of essence of object of knowledge. Are explained inter-branch laws and conformities to law which in force in the system of document communications.*

***Açar sözlər:*** *biblioqrafiyaşünaslıq, qanun, qanunauyğunluq, obyekt, metasistem.*
***Ключевые слова:*** *библиографоведение, закон, закономерность, объект, метасистема.*
***Keywords:*** *bibliography science, law, conformity to law, object, metasystem.*

## Giriş

Biblioqrafiyaşünaslığın ən əhəmiyyətli məsələlərindən biri biblioqrafiyanın qanun və qanunauyğunluqlarının yaradılmasıdır.

Biblioqrafik təcrübənin müasir miqyası, getdikcə böyük əhəmiyyət kəsb etməsi və mürəkkəbliyi onu " Biblioqrafiyaşünaslıq" adlanan bu xüsusi elmi fənnin layiqli obyekti edir. Biblioqrafiyaşünaslığa verilən tərifdə də bu cəhət nəzərə alınmışdır: Biblioqrafiyaşünaslıq – biblioqrafik informasiyanın xüsusiyyətini, quruluşunu, onun yaradılması və tələbatçılara çatdırılması proseslərinin qanunauyğunluqlarını öyrənən elmi fənndir(1, 109).

"Qanun" və "qanunauyğunluq" anlayışları fəlsəfədə dəqiq fərqləndirilməmişdir. Belə qəbul etmək olar ki, qanun və qanunauyğunluq hadisələri, onların səbəbləri və nəticələri arasında obyektiv mövcud olan əlaqələri əks etdirir. Amma qanunda bu əlaqələr daha möhkəm və ümumidir. Qanun həmişə həqiqətin qanunlarının ciddi, möhkəm sisteminə yazılır; uyğun hadisələrin böyük qisminə aiddir, bu hadisələrin bütün məcmusunu əhatə edir. Qanun nəzəri analizin gedişatında aşkar edilə bilər və gələcəkdə faktlarla təsdiq edilə (və ya təkzib edilə) bilər. Məcmu halda qanunlar biliyin obyektinin mahiyyətinin ifadə vasitəsi kimi

xidmət edir (2, 191).

Qanunauyğunluq onun tərəfindən ümumiləşdirilmiş faktların və xarici şəraitin dəyişikliyinin dairəsindən dəyişkən sistemlərə daxil olur. O konkret məzmunla zəngindir, bir və ya bir neçə qanuna aid olan hadisələrin xüsusiyyətlərini əks etdirir, faktların ümumiləşdirilməsi nəticəsində aydınlaşdırılır. Qanunauyğunluğu qanunun açılışına bir pillə kimi və ya bir və ya bir neçə qanun hərəkətinin təzahür forması kimi izah etmək olar.

**Məsələnin qoyuluşu**

Məqalədə biblioqrafiyaşünaslığın ən əhəmiyyətli məsələlərindən biri olan biblioqrafiyanın qanun və qanunauyğunluqlarından bəhs olunur. Qeyd olunur ki, məcmu halda qanunlar biliyin obyektinin mahiyyətinin ifadə vasitəsi kimi xidmət edir. Sənəd kommunikasiyaları sistemində qüvvədə olan sahələrarası qanunlar və qanunauyğunluqlar izah olunur.

Biblioqrafiyaya uyğun olaraq iddia etmək olar ki, qanunlar obyektiv (insandan asılı olmayaraq mövcud olan) və eyni zamanda biliyin obyekti kimi biblioqrafik fəaliyyətin ən əhəmiyyətli, dərin, möhkəm struktur xarakteristikalarını açır. Qanunauyğunluqlar biblioqrafik fəaliyyətin xüsusi xarakterlərini göstərir.

Bundan başqa, real həqiqətin bu və ya digər sahəsinin təhlili zamanı formalaşdırılmış qanunların və qanunauyğunluqların məcmusu müxtəlif tərkiblidir. Onu müxtəlif üsullarla strukturlaşdırmaq olar. Biblioqrafiya kimi təcrübi fəaliyyət üçün belə strukturu qəbul etmək məqsədəuyğundur:

1. Biblioqrafik metasistem və onunla yanaşı fəaliyyət sferaları səviyyəsində qüvvədə olanlar (kitabxana, arxiv, kitabçılıq işi, elmi-informasiya fəaliyyəti və b.), yəni sənəd kommunikasiyaları sistemi səviyyəsində qanun və qanunauyğunluqlar.

2.Biblioqrafik fəaliyyətin bütün sahəsində qüvvədə olan biblioqrafiyanın ümumi sahə üzrə qanunları.

3. Ayrı-ayrı biblioqrafik proseslərin daxilində aşkar edilən biblioqrafiyanın xüsusi qanunauyğunluqları (biblioqrafik axtarış, biblioqrafiyalaşdırma və b.).

**Problemin təhlili**

Biblioqrafiyanın ümumi sahələr üzrə qanunlarının yaradılması problemi biblioqrafiyaşünasların diqqət mərkəzindədir. Bir çox tanınmış biblioqrafiyaşünaslar problemin öyrənilməsinə, tədqiqatına əhəmiyyətli töhfələr vermişlər: T.F.Berestova, M.Q.Voxrışeva, O.P.Korşunov, A.V.Sokolov, V.A.Fokeyev. Ayrı-ayrı biblioqrafik informasiya proseslərinin qanunauyğunluqlarını Q.V.Qedrimoviç, Q.F.Qordukalova, L.V.Zilbermins, V.A.Minkina, İ.Q.Morqenştern, M.Y.Neşeret, D.Y.Teplov və digər müəlliflər tədqiq etmişlər (2, 192).

Biblioqrafik hadisələr haqqında biliklərin müasir səviyyəsini biblioqrafiyaşünasların ən uğurlu ideyalarını ümumiləşdirərək biblioqrafiyanın aşağıdakı qanun və qanunauyğunluqlarını formalaşdırmaq olar.

Sənəd kommunikasiyaları sistemində qüvvədə olan sahələrarası qanunlar və qanunauyğunluqlar:

• Sənəd kommunikasiyaları sisteminin mahiyyəti (mövcudluğunun mənası) informasiya baryerlərinin öhdəsindən gəlməklə sənədlər və tələbatçılar arasında uyğunluqlarınqurulmasından ibarətdir;

• Sənəd kommunikasiyaları sistemi ona daxil edilmiş institutların-vasitəçilərinfəaliyyətinin informasiya xidməti və təminatı üçün mütləq şəkildə ikinci altsistemi-sənədli, eyni zamanda, biblioqrafik alt sistemi doğurur.

Biblioqrafiyanın ümumi sahə üzrə qanunları:

• biblioqrafiyanın mahiyyəti biblioqrafik və biblioqrafik olmayan hadisələrin fərqləndirilməsi meyarına xidmət edən, əsas mahiyyət kəsb edən "biblioqrafik informasiya" kateqoriyasında ifadə edilir ("O.P.Korşunov qanunu");

• biblioqrafik informasiyanı yaradan və yayan bir vasitəkimi biblioqrafiyanın yaranma səbəbləri və biblioqrafiyanın inkişafının hərəkətverici qüvvəsi ümumi, xüsusi və tək-tək biblioqrafik ehtiyacları doğuran biblioqrafik kommunikasiyanın iki struktur elementinin (sənəd-tələbatçı) münasibəti ilə nəticələnir, ("O.P.Korşunovun ikiqat uyğunluq qanunu");

• biblioqrafik informasiyanın ümumi strukturu onun üç əsas funksiyası ilə təqdim edilir: axtarış, kommunikativ, qiymətləndirmə. Bu halda hər bir əsas ictimai funksiya sonrakı olmadan müəyyən edilə bilər, amma əvvəlki genetik imkanları özünə daxil etməyə bilməz ("O.P.Korşunovun qanunu") (2).

Biblioqrafiyanın xüsusi qanunauyğunluqları. Bu və ya digər biblioqrafik proseslər və ya strukturlar çərçivəsində hərəkət edən xüsusi qanunauyğunluqlar haqqında məsələ diqqət mərkəzindədir. Belə ki, biblioqrafik informasiyanın funksional strukturu ilə bağlı bəzi qanunauyğunluqlar mövcuddur. Onlar aşağıdakı kimidir:

1.Biblioqrafik informasiyanın axtarış funksiyası yalnız axtarış məqsədi güdən, özündə kommunikativ və qiymətləndirmə komponentləri özündə əks etdirməyən xüsusi vasitələrlə həyata keçirə bilər. Son mərhələdə biblioqrafik informasiyanın axtarış funksiyası bir qayda olaraq konkret sənəd fondu əsasında və (və ya) şəbəkə sənədlərinin kütləsi əsasında həyata keçirilir.

2.Biblioqrafik informasiyanın kommunikativ funksiyasının həyata keçirilməsinin real vasitələri hər zaman axtarış məqsədilə istifadə edilə bilər. Biblioqrafik informasiyanın kommunikativ funksiyası hər hansı fondla əlaqəni məcburi hesab etmir.

3.Biblioqrafik informasiyanın qiymətləndirmə funksiyasının reallaşdırması vasitələri axtarış və kommunikativ funksional imkanları mütləq özündə (bəzən gizli formada) cəmləşdirir.

Biblioqrafiyaşünaslar biblioqrafiya üçün əhəmiyyətli olan yaxın bilik sahələrində aşkar edilmiş bəzi qanunauyğunluqlara, hər şeydən əvvəl elmi-informasiya fəaliyyətinə də diqqət yetirirlər. Məsələn, 1934-cü ildə ingilis riyaziyyatçısı və biblioqrafı, elmi jurnallarda kimya üzrə məqalələrin bölgüsünü təhlil etmiş və bu prosesin başqa sahələr üçün də qanun sayılan ümumi miqdar

xarakteristikasını aşkar etmiş Samuel Bredford (1878-1948) tərəfindən hazırlanmış informasiyanın yayılması qanunauyğunluğudur. Sözsüz ki, biblioqrafik fəaliyyətdə belə qanunauyğunluqlar nəzərə alınmalıdır (2, 194).

**Nəticə**

Nəticə olaraq qeyd etmək lazımdır ki, biblioqrafiyanın fəaliyyət sahəsi kimi müstəqilliyi əsas etibarilə onun sosial funksiyaları olan axtarış, kommunikasiya və qiymətləndirmə səviyyəsində özünü göstərir. Bu funksiyalar isə biblioqrafik iş aparan müəssisələrdə həyata keçirilir. Beləliklə, kitabxana işi və elmi-informasiya fəaliyyəti biblioqrafiyanın öz əsas ictimai funksiyalarını həyata keçirdiyi kanallardandır. Kitabxana və elmi-informasiya orqanları öz tələbatçılarını bilik mənbələrinə dair biblioqrafik informasiya ilə təmin edir.

Biblioqrafiya, kitabxana və elmi-informasiya fəaliyyətləri vahid bir sistemdə özlərinə məxsus həm ümumi, həm də səciyyəvi xüsusiyyətə malik vəzifə və funksiyaları həyata keçirir. Belə qarşılıqlı münasibət uyğun elmi fənlər – biblioqrafiyaşünaslıq, kitabxanaşünaslıq və informatika səviyyəsində də qüvvədə qalır.

Elmi-informasiya fəaliyyəti və informatika yalnız elmi-informasiya kommunikasiyaları bütövlükdə götürməklə, bütün səviyyələrdə və formalarda (o cümlədən, kitabxana-biblioqrafiya səviyyələrində) nəzərdən keçirir. Burada son məqsəd bütün elmi kommunikasiya sistemini maksimum optimallaşdırmaqdan, onu müasir elmin tələblərinə uyğun səviyyəyə çatdırmaqdan ibarətdir.

Kitabxana-biblioqrafiya və elmi-informasiya fəaliyyətlərinin və onlara uyğun elmlərin obyektlərindəki və məqsədlərindəki müəyyən uyğunluq və fərqli cəhətlər məhz bundan ibarətdir.

Biblioqrafik informasiyanın əsas ictimai funksiyaları (axtarış, kommunikativ, qiymətləndirmə) cəmiyyətin biblioqrafik təminatı prinsiplərinin birmənalı olmadığını dərk etməyə imkan verir və göstərir ki, biblioqrafik informasiyanın ən mühüm funksiyalarından biri sənədləri informasiya tələbatçılarının tələbatlarına bilavasitə uyğunluqlarına və bununla əlaqədar başqa meyarlara görə qiymətləndirməkdən ibarətdir.

Biblioqrafik informasiyanın axtarış və kommunikativ funksiyaları qiymətləndirmə funksiyasından fərqli olaraq sənədləri formaya və məzmuna görə qaydaya salır. Biblioqrafik informasiyanın axtarış və kommunikativ funksiyalarının formal – məntiqi təbiəti əlaqədar biblioqrafik proseslərin tam avtomatlaşdırılması imkanlarını da artırır.

Professor Z.Əliyevin qeyd etdiyi kimi "bir qədər mücərrəd şəkildə götürülən əsas ictimai funksiyalar biblioqrafiyanın ümumi sabitliyinə dəlalət edir. Bu o deməkdir ki, biblioqrafik informasiya hər hansı bir dəyişikliyə məruz qalsa da həmişə bu əsas ictimai funksiyaları yerinə yetirmiş, yetirir və yetirəcəkdir. Əlbəttə, onların əməli olaraq həyata keçirilməsi üsulları müxtəlif mərhələlərdə konkret tarixi şəraitə uyğun olan səciyyəvi forma dəyişikliyinə məruz qala bilərlər" (1, 37).



Bütövlükdə, yaxın fəaliyyət sahələrinin (biblioqrafik, kitabxana, informasiya) və onların metasistemlərinin (sənəd kommunikasiyaları sistemi) müxtəlif səviyyə qanunları sisteminin aşkar edilməsi və əsaslandırılması gələcək tədqiqatçılar üçün aktual məsələdir.

**Ədəbiyyat**

1. Əliyev Z.H.Ümumi biblioqrafiyaşünaslıq:Dərs vəsaiti.-Bakı: Bakı Universiteti nəşriyyatı, 2001.-144 s.

2.Коршунов О.П., Леликов Н.К., Лиховид Т.Ф. Библиографоведение :Учебник /Под.общ. ред.О.П.Коршунова .- Санкт- Петербург:Профессия, 2014.-288 с.